**AZƏRBAYCAN DÖVLƏT IQTİSAD UNIVERSITETI**
**ELMI ŞURASININ**
**DAIMI KOMISSIYALARI HAQQINDA**

# ƏSASNAMƏ

## 1. ÜMUMİ MÜDDƏALAR

**1.1.**Elmi Şuranın Daim komissiyaları haqqında hazırkı Əsasnamə (bundan sonra mətndə Əsasnamə adlandırılacaq) Elmi Şuranın fəaliyyət göstərən Daimi komissiyalarının hüquqi statusunu, onların formalaşdırılma və fəaliyyət qaydalarını müəyyənləşdirir.

**1.2.**Elmi Şuranın Daimi komissiyaları (bundan sonra mətndə komissiyalar adlandırılacaq) Elmi Şuranın funksional strukturlarıdır (bölmələridir) və Elmi Şuranın işinin səmərəliliyini artırmaq, Elmi Şura qərarlarının hazırlanmasında yüksək ixtisaslı mütəxəssislərin geniş dairəsinin iştirakını təmin etmək məqsədilə onun əsas fəaliyyət istiqamətləri üzrə yaradılır.

**1.3.**Elmi Şuranın Daim komissiyaları Elmi Şuranın işçi orqanı olmaqla universitetin rəhbərliyinin, xidmət və şöbələrinin fəaliyyətini əvəzləmir. Komissiyanın qərarları Elmi Şura üçün tövsiyə səciyyəlidir.

**1.4.**Daimi komissiyalar öz fəaliyyətlərində Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyini, Azərbaycan Respublikası Təhsil Nazirliyinin Əsasnamələrini, ADİU-nin Nizamnaməsini, Elmi Şuranın qərarlarını, Elmi Şura tərəfindən qabul edilən və rektor tərəfindən təsdiq edilən bu Əsasnaməni rəhbər tuturlar.

**1.5.**Bu Əsasnamədə dəyişikliklər və ona əlavələr ADİU Elmi Şurasının qərarı əsasında edilir.

## 2. DAIMI KOMISSIYALARIN ƏSAS FUNKSIYALARI

**2.1.**Daimi komissiyaların qarşısında duran əsas məsələlər Elmi Şura iclaslarına çıxarılan məsələlərin, yaranmış vəziyyətin təhlili, təkliflər, tövsiyyələr və tədbirlər, Elmi Şura qərarlarının yerinə yetirilmə müddəti və qərarın yerinə yetirilməsi üçün məsul şəxslərin göstərilməsi ilə qərar layihələrinin hazırlanması da daxil olmaqla, öncədən nəzərdən keçirilməsindən ibarətdir.

**2.2.**Elmi Şura iclaslarına çıxarılan məsələlər bir qayda olaraq əvvəlcə müvafiq komissiyalar tərəfindən nəzərdən keçirilməlidir.

## 3. DAİMİ KOMİSSİYALARIN FORMALAŞMASI VƏ İŞİNİN TƏŞKİLİ

**3.1.**Daimi komissiyaların formalaşdırılması qaydası, onların tərkibi.

3.1.1. Elmi Şuranın Daimi komissiyaların yaradılması haqqında qərarı ADİU Elmi Şurası Sədrinin təqdimatı ilə adi səs çoxluğu ilə qəbul edilir;

3.1.2. Elmi Şuranın Daimi komissiyaları könüllülük əsasında formalaşdırılır. Daimi komissiyanın tərkibi, sədri və Daimi komissiyanın sədrinin müavini Elmi Şura sədrinin təqdimatı ilə Elmi Şuranın qərarı əsasında Rektorun əmri ilə təsdiq edilir;

3.1.3. Daimi komissiyanın tərkibinə Azərbaycan Dövlət İqtisad Universitetinin elmi-pedaqoji işçiləri, mütəxəssislər, həmçinin universitetin digər kateqoriyalardan olan işçilərinin nümayəndələri daxil edilir və onların sayı hər komissiyanın işinin xüsusiyyətlərindən asılıdır.

3.1.4. Daimi komissiyanın tərkibi ADİU Elmi Şurası tərəfindən Elmi Şura sədrinin və ya Elmi Şura Komissiyaları sədrlərinin təqdimatı əsasında dəyişilə bilər: yeni Daimi komissiyalar yaradılır, əvvəlkilər ləğv edilir və ya yenidən təşkil olunur.

3.1.5. Daimi komissiya tədris ili üçün qəbul edilən və Elmi Şura sədri tərəfindən təsdiq edilən plana müvafiq işləyir. Komissiyanın iclasları adətən ayda bir dəfədən az olmayaraq keçilir. İclasların keçirilmə tarixi və vaxtı komissiyanın iş

planında göstərilir. Komissiyanın növbədənkənar iclasları Elmi Şuranın, Rektorun tapşırığı ilə,bir də Daimi komissiyanın öz təşəbbüsü ilə keçirilir;

3.1.6. Daimi komissiya üzvlərinin siyahı üzrə yarısından çoxu lehinə səs verdiyi təqdirdə komissiyanın qərarı qəbul edilmiş sayılır. Daimi komissiya üzvlərinin (üzvünün) təklifi ilə səsvermə qaydalara uyğun aparılır. Elmi Şuranin qərarı ilə səs vermə ümumi siyahı ilə və ya adbaad aparıla bilər;

3.1.7. Elmi Şuranın Daimi komissiyasında işləmək üçün namizədliyi hazırkı Əsasnamə ilə müəyyənləşdirilmiş qaydada irəli sürülmüş namizəd Elmi Şura üzvlərinin səs çoxluğunu toplamazsa, Elmi Şura sədrinə Elmi Şurada baxılmaq üçün başqa namizəd təklif etmək hüququ verilir. Bu namizəd üzrə qərar Əsasnamə ilə müəyyənləşdirilən qaydada qəbul edilir;

3.1.8. Elmi Şura Daimi komissiya sədrinin əsaslandırılmış təqdimatı əsasında komissiyanın tərkibindən onun üzvünü (o cümlədən katibini və sədrin müavinini) geri çağıra bilər. Komissiyanın sədri və ya üzvü geri çağrılarsa və ya onun tərkibindən gedərsə (məsələn, universitetdən işdən çıxmaqla əlaqədar) Elmi Şura sədri komissiyanın tərkibinə yeni namizəd irəli sürür və onunla bağlı Elmi Şuranın qərarı Əsasnamə ilə müəyyənləşdirilən qaydada qəbul edilir;

3.1.9. Daimi komissiyalar Elmi Şuranın səlahiyyəti müddətinə yaradılırlar;

3.1.10. Daimi komissiyaların səlahiyyətinə aid olmayan bu və ya digər məsələyə görə qərarların hazırlanması üçün zərurət yarandıqda Elmi Şura müvəqqəti komissiyalar yarada bilər. Müvəqqəti komissiyalar həm Elmi Şura üzvlərindən, həm də universitetin Elmi Şura üzvü olmayan əməkdaşları komissiya üzvlüyünə cəlb edilməsi yolu ilə yaradılır.Müvəqqəti komissiyanın qarşısında duran konkret məsələlər, fəaliyyət müddəti, səlahiyyətləri və tərkibi Elmi Şuranın qərarı ilə müəyyənləşdirilir. Belə müvəqqəti komissiyanın sədri bu halda Elmi Şuranın qərarı ilə təsdiq edilən Elmi Şura üzvü olmalıdır;

3.1.11. Müvəqqəti Komissiya ona həvalə edilən məsələləri həll etdikdən sonra və ya Elmi Şura sədrinin qərarı əsasında vaxtından əvvəl fəaliyyətini dayandırır.

**3.2.** Elmi Şura Daimi komissiyalarının işinin təşkili qaydaları.

3.2.1. Daimi komissiyalar öz fəaliyyət sahələrinə aid məsələlərin Elmi Şuranın iş planına salınmasını təklif edirlər;

3.2.2. Daimi komissiyalar Elmi Şura iclaslarının planına müvafiq olaraq qərar layihələrinin hazırlanmasını həyata keçirir və Elmi Şuraya təqdim edirlər;

3.2.3. Daimi komissiyalar Elmi Şuranın Komissiyanın fəaliyyət sahəsinə aid olan qərarların yerinə yetirilməsini yoxlayırlar;

3.2.3. Daimi komissiyanın birinci iclasında komissiyanın tərkibindən komissiyanın katibi seçilir;

3.2.4. Daimi komissiyanın işini komissiya yaradılanda Elmi Şuranın qərarı ilə təsdiq edilən sədri təşkil edir. Komissiya sədri yerində olmadıqda onun funksiyalarını sədrin müavini həyata keçirir;

3.2.4. Daimi komissiyalar Elmi Şura sədrinin və ya elmi katibin tapşırığı ilə Elmi Şuraya baxılmaq üçün çıxarılan məsələləri öncədən müzakirə edirlər;

3.2.5. Daimi komissiyanın sədri komissiyanın işinə rəhbərliyi həyata keçirir, onun işini planlaşdırır, Elmi Şuranın sədri və katibliyi ilə, universitetin xidmət və bölmələri ilə onun fəaliyyət predmetinə aid edilən məsələlər üzrə əlaqə saxlayır, komissiyanın iclaslarını aparır, komissiya üzvlərinə tapşırıqlar verir və komissiyanın fəaliyyəti ilə bağlı başqa funksiyaları həyata keçirir;

3.2.6. Daimi komissiyanın katibi iclasları protokollaşdırır, məlumatların texniki hazırlanmasını həyata keçirir və onlar Elmi Şura katibliyinə daxil olurlar;

3.2.7. Daimi komissiyanın iclasları onun iş planına uyğun olaraq, həmçinin onun fəaliyyət predmetinə aid olan məsələlərin müzakirəsinə ehtiyac olduqda aparılır.

3.2.8. Baxılmaq üçün məsələlər Daimi komissiyaya Elmi Şura iclasından ən azı 10 təqvim günü əvvəl göndərilir;

3.2.9. Daimi komissiya iclaslarının protokolları və Elmi Şuraya müzakirəyə çıxarılan qərar layihələri, rəylər, tövsiyələr və s. komissiyanın sədri və katibi tərəfindən imzalanır, komissiyanın işlərində və Elmi Şura katibliyində saxlanılır;

3.2.10. Universitet sturukturları Daimi komissiyaların işinin təşkilinə dəstək verir, onların fəaliyyətinin texniki təminatı üçün lazımi şərait yaradır (işlənən materiallar,

surətçıxarma texnikası ilə təminat), komissiyanın fəaliyyət predmetinə aid olan məsələlər üzrə informasiya dəstəyi verir;

3.2.11. Daimi komissiyanın sədri və ya onun tapşırığı ilə komissiya üzvlərindən biri Elmi Şuraya müzakirə olunan məsələlərlə bağlı komissiyanın mövqeyi barədə məlumat verir, komissiyanın qərarı komissiya iclasının protokolunda əks etdirilir;

3.2.12. Daimi komissiya sədrlərinin və komissiya üzvlərinin əməyi Elmi Şuranın və ya universitetin rektorunun qərarı ilə ödənilə və ya tədris-pedaqoji yükün bölgüsündə nəzərə alına bilər;

3.2.13. Daimi komissiyaların sədri öz fəaliyyətlərində hər il universitetin Elmi Şurası qarşısında hesabat verir.

## 4. DAİMİ KOMİSSİYALAR

Elmi Şura öz fəaliyyətini təmin etmək üçün onun bütün səlahiyyəti müddətində fəaliyyət göstərən Daimi komissiyalar formalaşdırır:

***1. Təhsil və elmin vəhdəti komissiyası***

***2. Sosial məsələlər komissiyası***

***3. Attestasiya komissiyası***

***4. Əmək bazarı ilə əməkdaşlıq komissiyası***

***5.Təhsilalanlarla iş üzrə komissiya***

## 5. DAİMİ KOMİSSİYALARIN FƏALİYYƏT İSTİQAMƏTLƏRİ

### 5.1. TƏHSİL VƏ ELMİ VƏHDƏTİ KOMİSSİYASI

1. Universitetin elmi-tədqiqat və innovasiya fəaliyyətinin strateji məsələlərini işləyib hazırlayır;
2. Universitetin əsas bölmələrinin elmi-tədqiqat işlərinin əsas istiqamətləri və nailiyyətləri ilə tanış olur;
3. Universitetin elmi-tədqiqat işləri üzrə illik hesabatını nəzərdən keçirir;
4. Universitetin dövlət büdcəsindən maliyyələşdirilən elmi-tədqiqat işlərinin tematik planını nəzərdən keçirir;

5. Universitetdə yerinə yetirilən elmi işlərin və onların müəlliflərinin dövlət və digər fəxri mükafatlara namizədliyinin irəli sürülməsi üzrə tövsiyələr qəbul edir;
6. Beynəlxalq elmi layihələrin yerinə yetirilməsi məsəslələrini nəzərdən keçirir;
7. Universitetin "Elmi əsərlərə görə" mükafatına namizədlikləri irəli sürülənlərin namizədliklərini nəzərdən keçirir və mükafatın verilməsi ilə bağlı təklifləri Universitet Elmi Şurasına çıxarır;
8. Universitetin gənc alimlərinin və tələblərinin elmi əsərləri konkrusuna irəli sürüelmüş işləri nəzərdən keçirir və mükafatlarının (yüksək təqaüdlərin) verilməsi üzrə təklifləri Elmi Şuraya çıxarır;

## 5.2. SOSİAL MƏSƏLƏLƏR KOMİSSİYASI

1. Universitet tələbələri ilə tərbiyə və sosial işlərin əsas istiqamətlərini nəzərdən keçirir;
2. Universitetin gənclik siyasətinin konsepsiyasını hazırlayır;
3. Universitetin sosial sahəsinin inkişafının perspektiv və cari planlaşdırılması məsələləri nəzərdən keçirir;
4. Universitet əməkdaşlarının sosisal müdafiəsi tədbirləri üzrə təkliflərin və Universitet işçilərinə müxtəlif güzəştlərin verilməsi üzrə təkliflərin işlənib hazırlanması;
5. Universitetdə tələbələrin və işçilərin istirahətini və sağlamlaşdırılmasının təşkli məsələləri nəzərdən keçirir;
6. Universitetdə tələblərlə tərbiyə işinin metodları, onların boş vaxtının təşkili, həmçinin unversitet tələbləri və əməkdaşlarının estetik və mənəvi tərbiyəsi ilə bağlı məsələləri nəzərdən keçirir;
7. Universitetdə tədris-tərbiyə, kütləvi-mədəni və sosial tədbirlərin tam yetərli aparılması üçün lazım olan maliyyə və maddi –texniki vasitələrdən səmərəli istifadə üzrə təklifləri hazırlayır;
8. Universitetdə tələblərlə aparılan tərbiyə, kütləvi – mədəni, idman-sağlamlıq və sosial tədbirlərin səmərəliliyini təhlil edir;

9. Tələblərin və işçilərin universitet yataqxanalarında məişətinin təşkili üzrə təkiliflər hazırlayır;
10. Universitet tələblərinin tələbatları, ehtiyacları, maraqlarını öyrənir;
11. Müxtəlif kateqoriyalardan olan tələləbələr təqaüdlərin təyin edilməsi qaydalarına aid məsələləri nəzərdən keçirir;
12. İctimai təşkliatlarla və yaradıcı kollektivlərlə əlaqələr.

## 5.3. ATTESTASİYA KOMİSSİYASI

1. Elmi-pedaqoji işçi vəzifəsini tutmağa namizədlərin Elmi Şura səlahiyyətlərində olan işlərini öncədən ekspertiza qaydasında nəzərdən keçirir;
2. Professor və dosent elmi adlarının verilməsi üzrə materialları nəzərdən keçirir və Elmi Şuraya təqdim edir;
3. Doktorantların və dissertantların illik attestasiyasını, doktorantlara və dissertantlara elmi rəhbərliyin səmərəliliyi nəzərdən keçirir;
4. Azərbaycan Respublikasının fəxri adlarının, Universitetin "Fəxri doktor", "Fəxri dosenti" adlarının verilməsi haqqında qərar qəbul edilməsi üzrə Elmi Şura üçün əsaslandırılmış tövsiyələr hazırlayır;
5. Dövlət və digər mükafatlara, dövlət, hökumət və sahə mükafatlarına təqdimat məsələləri üzrə Elmi Şura üçün əsaslandırılmış tövsiyələr hazırlayır;
6. Akadamiyasların həqiqi və müxbir üzvlüyünə namizədlərin irəli sürülməsi məsələləri üzrə tövsiyələr hazırlayır;
7. Konkurs irəli sürülən və Elmi Şuranın qərarı lazım olan namizədlərin materiallarının öncədən ekspertizasını aparır.

## 5.4. ƏMƏK BAZARI İLƏ ƏMƏKDAŞLIQ KOMİSSİYASI

5.4.1. Məzunların işlə təminatı;

5.4.2. Məzunların istehsalatda elmi-tədqiqat işlərinin təşkili;

5.4.3. Universitetin istehsalat müəssisələri ilə qarşılıqlı müqavilələrin təşkili.

5.4.4. Əmək bazarında ehtiyac olan yeni ixtisaslar üzrə kadrların hazırlanması məsələsini təklif edir.

5.4.4. Məzunların istehsalat və diplomqabağı təcrübəyə göndərilməsinin təşkili

5.4.5. Qabaqcıl təcrübəyə malik olan müəssisələrdə işgüzar görüşlərin keçirilməsinin təşkili

5.4.6. Elmi –tədqiqat işlərinin istehsalatda tətbiqinin təşkili

5.4.7. Beynəlxalq müəssisə və təşkilatlarla qarşılıqlı təcrübələrin, o cümlədən tələbə və müəllim mübadiləsinin təşkili

## 5.5. TƏHSİLALANLARLA İŞ ÜZRƏ KOMİSSİYA

5.5.1. Təhsilalanların hüquq və vəzifələri Azərbaycan Respublikasının Konstitusiyasına, bu Qanuna və digər normativ hüquqi aktlara, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun müəyyən edilir.

5.5.2. Bütün təhsil müəssisələrinin təhsilalanları və məzunları bərabər hüquqlara malikdirlər.

5.5.3. Təhsilalanların komissiya hüquqlarının qanuniləşməsinə nəzarət edin.

5.5.4. qanunvericilikdə nəzərdə tutulmuş qaydada təhsil müəssisəsinə qəbul olunmaq;

5.5.5. təhsil müəssisəsini, təhsilin istiqamətini, ixtisası, təhsilalma formasını və təhsil dilini sərbəst seçmək;

5.5.6. dövlət təhsil standartlarına uyğun keyfiyyətli təhsil almaq;

5.5.7. müvafiq qaydada təhsilin təmayülünü, təhsil proqramlarını seçmək;

5.5.8. ali təhsil müəssisəsinin tədris planlarına uyğun olaraq tədris fənlərini, semestrlər üzrə kreditlərin miqdarını, təhsilverənləri və tyutorları sərbəst seçmək;

5.5.9. təhsil müəssisəsinin mövcud infrastrukturundan (tədris-istehsalat, elmi tədqiqat, informasiya, mədəni-məişət, idman, sağlamlıq mərkəzlərindən, kitabxanalardan və s.) istifadə etmək;

5.5.10. müəyyən edilmiş qaydada təhsil müəssisəsini və ixtisasını dəyişmək;

5.5.11. elmi tədqiqat fəaliyyəti ilə məşğul olmaq;

5.5.12. fasiləsiz təhsil almaq;

5.5.13. sağlamlıq üçün təhlükəsiz və zərərsiz təhsil şəraiti ilə təmin olunmaq;

5.5.14. insan ləyaqətini və şərəfini alçaldan, insan hüquqlarına zidd hərəkətlərdən müdafiə olunmaq;

5.5.15. müəyyən edilmiş qaydada təhsil müəssisəsində təhsilini müvəqqəti dayandırmaq;

5.5.16. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada biliyinin yenidən qiymətləndirilməsini tələb etmək;

5.5.17. ali təhsilin hər bir səviyyəsində qanunvericiliyə uyğun olaraq yalnız bir dəfə pulsuz təhsil almaq;

5.5.18. müəssisələrində dərsliklərlə pulsuz təmin olunmaq;

5.5.19. təhsil prosesinin təşkilində və idarə olunmasında fəal iştirak etmək, öz fikir və mülahizələrini sərbəst ifadə etmək;

5.5.20. universitetin elmi, ictimai, sosial və mədəni həyatında, elmi cəmiyyətlərin, dərnəklərin və digər təşkilatların yaradılmasında iştirak etmək, eləcə də ölkə və beynəlxalq səviyyəli belə təşkilatlara üzv olmaq;

5.5.21. elmi-praktik konfransların, seminarların, yığıncaqların və görüşlərin, habelə təhsil həyatı ilə bağlı digər tədbirlərin keçirilməsində iştirak etmək;

5.5.22. qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

5.5.23. Universitetdə qanunvericiliklə müəyyən edilmiş hallar istisna olmaqla, təhsilalanların təhsil prosesi ilə bağlı olmayan işlərə və tədbirlərə cəlb edilməsinə yol verilmir.

5.5.24. dövlət təhsil standartlarına uyğun bilik, bacarıq və vərdişlərə yiyələnmək;

5.5.25. pedaqoji işçilərin şərəf və ləyaqətinə hörmətlə yanaşmaq;

5.5.26. təhsil müəssisəsinin nizamnaməsinin tələblərinə riayət etmək;

5.5.27. dövlət, cəmiyyət, ailə və özü qarşısında məsuliyyətini dərk etmək;

5.5.28. təhsil sahəsində qanunvericiliyin tələblərinə, etik normalara və təlim-tərbiyə prosesi ilə bağlı qaydalara əməl etmək;

5.5.29. qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

## 6. DAİMİ KOMİSSİYALARIN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

6.1.Daimi komissiyaların hüquqları:

6.1.1. Öz iclaslarında komissiyanın fəaliyyət predmetinə aid olan məsələləri müzakirə etmək, müzakirə edilən məsələlərlə bağlı qərar qəbul etmək;

6.1.2. Müzakirə və kollegial idarəetmə qərarının qəbul edilməsini tələb edən məsələnin Elmi Şuranın iclas gündəliyinə salınması üçün Elmi Şura katibliyi qarşısında məsələ qaldırmaq;

6.1.3. Elmi Şuraya idarəetmə qərarlarının qəbulu və onların məzmununun və ya lokal normativ-hüquqi aktların təkmilləşdirilməsinə yönəlmiş təkliflər vermək;

6.1.4. Elmi Şura sədrinin və ya Elmi Şuranın tapşırığı əsasında öz fəaliyyət predmeti sahəsinə aid olan məsələlər üzrə idarəetmə qərarlarının və ya normativ-hüquqi aktların ekspertizasını (iqtisadi, hüquqi, idarəetmə, texniki və s.) aparmaq. Buna əsaslı tələbat olduğu təqdirdə universitetin Elmi Şurası qarşısında yuxarıda qeyd olunan ekspertizaların aparılması təşəbbüsü ilə çıxış etmək;

6.1.5. ADİU struktur bölmələri rəhbərlərindən səlahiyyətlərinin daxil olan zəruri materialları və informasiyanı istəmək və almaq;

6.1.6. Səlahiyyətlə çərçivəsində ADİU rəhbərləri və struktur bölmələri tərəfindən Elmi Şuranın qərarlarının keyfiyyətlə və vaxtında yerinə yetirilməsini yoxlayır;

6.1.7. Komissiya iclasının nəzərdən keçirilmə predmeti olan məsələlərin hərtərəfli öyrənilməsi məqsədilə öz iclaslarına universitet rəhbərliyin, xidmət və şöbələrinin nümayəndələrini dəvət etmək.

6.2.Elmi Şuranın Daimi komissiyası səlahiyyətlidir:

6.2.1. Öz səlahiyyələri çərçivəsində Elmi Şura Sədrinə və elmi katibinə Elmi Şura iclasına çıxarılan məsələlərlə bağlı təkliflərini və qərar layihələrini təqdim etmək;

6.2.2. Elmi Şura və Rektorluğun iclaslarında universitetin müvafiq fəaliyyət istiqamətləri üzrə məsələlərin nəzərdən keçirilməsində səlahiyyələri çərçivəsində rəy bildirmək və təkliflər vermək;

6.2.3. Komissiyanın səlahiyyələrində olan məsələlər və fəaliyyət sahəsi predmetinə müvafiq olaraq Şura sədrinin və Elmi Şuranın tapşırıqlarını göstərilən müddətdə yerinə yetirmək;

6.2.4. Qərarların hazırlanmasında mövcud qanunvericiliyin müddəaları, ümumuniversitet maraqları, komissiya üzvlərini peşə bilikləri, mənəvi-etik normaları əldə rəhbər tutmaq;

6.2.5. Universitetin müxtəlif kateqoriyadan olan işçilərinin mövcud qanunvericilikdə və universitetin lokal normativ-hüquqi aktlarında nəzərdə tutulmuş hüquqlarını və qanuni maraqlarından kənarlaşmamaq.

## 7. DAİMİ KOMİSSİYALARIN FƏALİYYƏTİNƏ NƏZARƏT

7.1.1.Daimi komissiyaların işinə cari nəzarəti Elmi Şuranın sədri həyata keçirir;

7.1.2.Daimi komissiyaya həvalə edilən məsələlər və iş planı üçün Universitet Elmi Şurası qarşısında məsuliyyəti onun sədri daşıyır.